

Lalə Corayeva

## On saniyə...

Yuxusuzluqdan vaz keçmədən ağlım
Zəng çalacaq budilnik, saat.
On saniyə...
yenə on saniyə...
və on saniyə gec qalır bamdad...

Yenə bir az,
və yenə bir az...
yavaş-yavaş işim vardir və...
O ilgisiz on saniyədən
Başlayacaq böyük gecikmə...

Tələsirəm, on saniyəyə
Avtobuslar eləmir taqət.
Hər dan duracaqda gözləyir məni,
On saniyə gec qalan "Həyat".

Qarmaqarışıqam, bir də səliqə,
Lek vərdişin pozmaz heç saat...
Ömür davam edəcək, bir bax
On saniyə etmədən taqət...

## Gecə

Aləm dincəlməkdə
bəzmdənqayıtan
yuxuya gedəcək
rəqqasə kimi...

Bir azca nas* qalan
nasqapın sırtın,
Titrəyən əlilə
vurub bihal
Ağpadişahi məğlub edən
Devlər haqqında
Nəvələrə
nağıl söyləyir qoca.

Uzun saçlarını
bozan, esdirən,
Külək bibaşliyin
görmədən məlal,
Yüz yıldır yad olan
nağılı dinlər
Yüzüncü dəfə
qocadan köhnə dal.

...Hər an bir ritmdə
fırlanır dünya,
Zaman öz yerindən
getməz bir addım.
Nağıl danışmaqdan
yorulmazsa qoca,
Ya da o küləkdən
yıxılmasa dal,
Çox eskidən qalan
köhnə nağılı
Nəvələr nəvələrinə
Hətta yüz ildən son
söyləyəcəkdir.

Kimsə oyadmazsa,
Kimsə deyməzsə,
Geri qayıdacaq
təkrar və təkrar:
Gecə,
Bəzm,
Rəqqasə
Və nağılcı qoca...

## Yeseninə məktub

O, Yesenin, davakar oğlan,
Sənə olan Əşq ürəyimdə.
Sən ananı sevdiyin kimi,
Öz ölkəmi sevirəm mən də.
(mən qəribdə ana yox axı)
Sənə şəfqətim qəlbimdə cəm.

Səmərqənd istəyir könlün,
Mənim könlüm Moskova aşiq.
Mavi gözlü qıza aşiqsən,
Ürəyimi it tımdalayır,
Mavi deyil mənim gözlərim.

Narahatam,
Sən unut axı,
İndi Rusda Şahinələr çox,
Amma səntəkşeirə mehriban,
XorasandaYeseninler yox,
Narahatam, sən unut axı..

Ürək "Yaz, yaz!" deyə vuracaq,
Yazsam sözlər kağıza sığmır.
Yazıram, od vururam sonra,
Şairliği istəmirəm heç,
Ürək "Yaz, yaz!" deyə vuracaq.

Rusda sən-çün qoyurlar heykəl,
İstedadın və felin üçün.
Öz yurdumdan qovulmasaydım,
Axı səni sevdiyim üçün.
Rusda sən-çün qoyurlar heykəl.

O, Yesenin davakar oğlan,
Çox vəhşidir sənin gözlərin.
Bil ki, Şərqdə matəm olacaq,
Şaxinanı unutduğun gün.
Çox vəhşidir sənin gözlərin.

***

Mənə yetməz ay derdim,
Ulduza yox cayderdim,
Aytək qəlbi kibrə
İtirdim, a, itirdim.

Günlər göydə gülmürdü,
Onsuz könlüm dolmurdu,
Yanar idim əşqində
Ay bunu heç bilmirdi...

Verdim, əlim tutmadı,
O mənim-çün qəm utmadı,
Boynum göyə çatdi, ancaq
Aya heç vaxt çatmadı...

Günün köksü daşmıydı,
Batmağa tələsmədı,
Göyə qalxa bilmədim,
Ay da yerə düşmədi...

Mənə yetməz ay derdim,
Ulduza yox cayderdim,
Eh... Ləkəsiz ürəyim,
Xallı aya itirdim...

Uyğunlaşdırdı: Rəhmət Babacan

Türküstan.- 2022.- 11-17 yanvar.- S.15.